

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 18 (24.155)

31 yanvar 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Misir-Azərbaycan əlaqələri – bu əməkdaşlığın inkişafı üçün çox gözəl imkanlar vardır

### Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi Azərbaycan Respublikasında səfərdə olub

Azərbaycan Respublikasına səfərə gələn Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin yanvarın 28-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Misir Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Misir Prezidentinə raport verdi.

Prezident Əbdülfəttah Əs-Sisi Azərbaycan əsgərlərini salamladı.

Prezident İlham Əliyev və Prezident Əbdülfəttah Əs-Sisi fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Misir Ərəb Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Misir Prezidentinə, Misir nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

***

Yanvarın 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə təkbətək görüşü olub.





Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

***

Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin geniş tərkibdə görüşü olub.

Dövlət başçıları görüşdə çıxış etdilər.

Azərbaycan Prezidenti ***İlham Əliyev*** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident, hörmətli qonaqlar, bir daha sizi səmimiyyətlə salamlayıram.

Səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər Misir-Azərbaycan əlaqələrinin inkişafı üçün çox mühüm addım olacaqdır. Biz indicə təkbətək görüşümüzdə bir çox məsələləri müzakirə etdik. Misir-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı bizim fikir ayrılığımız yoxdur. Bir çox sahələrdə əməkdaşlıq üçün çox gözəl imkanlar var. Əminəm, əldə olunmuş razılaşmaları biz səfərdən sonra icra edəcəyik.

Dünən Azərbaycan iş adamları ilə cənab Prezidentin görüşü olmuşdur. Məndə olan məlumata görə, görüşün çox gözəl nəticələri olmuşdur. Əlbəttə ki, biznes dairələrinin birgə fəaliyyəti bizim əlaqələrimizi daha da gücləndirəcək. Biz gələcək əməkdaşlıq sahələrini də müəyyən etdik. Əminəm ki, həm qarşılıqlı sərmaya qoyuluşu, həm ticarət dövriyyəsinin artırılması yaxın gələcəkdə mümkün olacaq.

Əlbəttə ki, siyasi əlaqələrimizin gücləndirilməsi məsələləri də diqqətdən yayınmadı. Beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimizi gücləndirəcəyik və əməkdaşlığımızı dərinləşdirəcəyik.

Əminəm ki, Prezident cənab Sisinin Azərbaycana səfəri ölkələrimizin gələcək uğurla inkişafına çox böyük töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz.

***

Misir Prezidenti ***Əbdülfəttah Əs-Sisi*** dedi:

– Möhtərəm cənab Prezident, ilk növbədə, səmimi qəbula və qonaqpərvərliyə görə, dünəndən gördüyüm bu qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək və eyni zamanda dünən Azərbaycan səfirliyinə baş vermiş hücumla əlaqədar başsağlığımı çatdırmaq istəyirəm.

Cənab Prezident, görüşümüz zamanı bütün sahələrdə özünü büruzə verən qarşılıqlı anlayış, istər siyasi, istər iqtisadi, istər digər sahələrdə əməkdaşlığın inkişafı istiqamətində hər iki tərəfin siyasi iradəsinin mövcudluğu bu əlaqələrin tez bir zamanda daha da gücləndiriləcəyinə məndə əminlik yaradır. Eyni zamanda Azərbaycan xalqının Ümummilli Lideri, Misir xalqının yaxın dostu mərhum Prezident Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə də təbriklərimizi Sizə çatdırmağı şərəf bilirəm.

Əlbəttə, ötən il keçirilmiş Azərbaycan-Misir Hökumətlərarası Müştərək Komissiyanın iclasında da gözəl nəticələr əldə olunmuşdur. Amma hesab edirəm ki, bu səfərdən də sonra qarşılıqlı anlayış şəraitində ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin inkişafı qarşılıqlı istəklər və mövcud olan siyasi iradəyə əsaslanaraq daha da dərinləşəcək.

Eyni zamanda cənab Prezident, Sizinlə razılaşdıq ki, istər Azərbaycan investorları, istərsə də misirli investorlar üçün ölkələrimizdə asanlaşdırıcı tədbirlər görülsün və onlara kömək göstərilsin. Əsasən də, əczaçılıq sahəsində müştərək müəssisələrin və müştərək investisiyaların yaradılması da bizim aramızda əldə olunan razılaşmadır. Siz qeyd etdiyiniz kimi, Azərbaycanın ehtiyac duyduğu bütün dərman preparatlarının siyahısı hazırlanıb bizə təqdim olunandan sonra biz də bu istiqamətdə öz işlərimizi görəcəyik.

***

Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Misir Ərəb Respublikasının Su Ehtiyatları və Suvarma Nazirliyi arasında su ehtiyatlarının idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Misirin xarici işlər naziri Sameh Həssən Şukri imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Misir Ərəb Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Misirin xarici işlər naziri Sameh Həssən Şukri imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Ticarət və Sənaye Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Misirin planlaşdırma və iqtisadi inkişaf naziri xanım Hala Helmi Elsaid imzaladılar.

***

Yanvarın 28-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi mətbuata bəyanatlarla çıxış etdilər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

#### Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Cənab Prezident, ilk növbədə Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəkdir. Biz bu gün həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə bir çox məsələləri müzakirə etdik və gələcək əməkdaşlıq haqqında vahid mövqeyə gəldik – bu əməkdaşlıq dərinləşdirilməlidir və genişləndirilməlidir. Bunun üçün bütün imkanlar var və bugünkü səfər bunu bir daha təsdiqlədi.

Biz bundan sonra da beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərəcəyik, bir-birimizi bundan sonra da dəstəkləyəcəyik, necə ki, bu günə qədər iştirak etdiyimiz beynəlxalq təşkilatlarda – istər BMT olsun, Qoşulmama Hərəkatı olsun, İslam Əməkdaşlıq Təşkilatı olsun, bu təşkilatlar çərçivəsində qarşılıqlı dəstək göstəririk.

BMT ilə bağlı məsələlər artıq dünyada uzun illər müzakirə edilir, BMT-dəki islahatlar haqqında fikir mübadiləsi aparılır. Mən çıxışlarımın birində bildirmişdim ki, bu islahatlara böyük ehtiyac var. Hesab edirəm ki, Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir. Bir daimi yer mütləq İslam Əməkdaşlıq Təşkilatının üzvünə verilməlidir və İslam Əməkdaşlıq Təşkilatı özü məsləhətləşmələr əsasında bu namizədliyi irəli sürməlidir. Digər daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə bu yerə sahib olmalıdır. Hesab edirəm ki, bu, ədalətli olar. Çünki İkinci Dünya müharibəsindən artıq 80 ilə yaxın vaxt keçir, dünya dəyişib və bu dəyişikliklər sürətlə davam edir. Ona görə, hesab edirəm ki, bu islahatlar daha ədalətli və təhlükəsiz dünyanın yaradılmasına xidmət göstərəcəkdir.

Biz bu gün regional təhlükəsizlik məsələlərini müzakirə etdik və eyni zamanda gələcəkdə təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirmək üçün fikir mübadiləsi apardıq. Beynəlxalq terrorçuluğa qarşı birgə mübarizəmizi gücləndirmək qərarına gəldik, buna böyük ehtiyac var. Çünki beynəlxalq terrorçuluq bütün dünya üçün böyük təhdiddir və bu təhlükəyə qarşı, ancaq səylərin birləşdirilməsi nəticəsində uğurla mübarizə aparmaq mümkün olacaqdır.

Bu gün mən hörmətli qonağımı bizim bölgəmizdə gedən proseslər barədə məlumatlandırdım. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başa çatdı. Artıq bu münaqişə həll olundu, Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalır və əbədi qalacaqdır. Biz işğala artıq son qoyaraq sülhə daha da yaxınlaşmışıq. Hələ ki, sülh əldə edilməyib. Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsi artıq sülhün əldə edilməsinə gətirib çıxaracaq. Biz bəlli olan təklifləri irəli sürmüşük və bütün əzabəziyyətlərə, bütün dağıntılara baxmayaraq, yenə də hesab edirik ki, sülh müqaviləsi mütləq imzalanmalıdır. Əks təqdirdə, bizim bölgəmizdə təhlükələr daha da arta bilər.

Azərbaycan 30 ilə yaxın davam edən işğala hərbi-siyasi yollarla son qoydu, öz ərazi bütövlüyünü bərpa etdi, BMT-nin dörd qətnaməsini özü icra etdi. Halbuki bu qətnamələri BMT özü icra etməli idi. BMT Təhlükəsizlik Şurasının islahatlarının labüdlüyü məhz buna əsaslanır. Çünki biz 30 ilə yaxın bu qətnamələrin icrasını gözləmişik, amma bunu görməmişik. Yəni burada həm ikili standartlar hökm sürürdü, həm ayrı-seçkilik hökm sürürdü. Biz bu müharibəni apararaq işğala son qoyduq və ədaləti bərpa etdik. İndi isə azad edilmiş torpaqlarda qurub-yaradırıq və bütün dağıntıları görərkən bir daha görürük ki, biz Azərbaycanı və bölgəni hansı bəladan qurtardıq.

Biz, eyni zamanda bu gün ticari-iqtisadi məsələləri geniş müzakirə etdik. Ötən il Azərbaycanda Hökumətlərarası Müştərək Komissiyanın iclası keçirilmişdi və komissiyanın növbəti iclası ərəfəsində bu gün hörmətli qonağımla əldə edilmiş razılaşmaları biz həyata keçirməliyik ki, növbəti iclasda artıq konkret addımlar atılsın. Sahələr də müəyyən edilmişdir – əczaçılıq, sənaye sahələri, alüminium sənayesi, energetika, neft sənayesi, o cümlədən bərpa olunan energetika sahəsi. Burada da böyük imkanlar var.

Mən deyə bilərəm ki, hörmətli cənab Prezident, Sizin tərəfinizdən aparılan islahatlar Misir dövlətinin imkanlarını böyük dərəcədə gücləndirə bilmişdir. Misir bu gün yerləşdiyi

Ardı 2-ci səhifədə

bölgədə sabitləşdirici rol oynayır. Biz bunu çox təqdir edirik və əldə olunmuş nailiyyətlərlə öz dostlarımızı səmimiyyətlə təbrik edirik.

Əminəm ki, bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq. Eyni zamanda yerləşdiyimiz bölgələrə də əlavə sabitlik gətirəcəkdir. Çünki sabitlik olmadan heç bir ölkə uğurla inkişaf edə bilməz.

Bir çox başqa layihələr də müzakirə edilmişdir. Bu gün bu mətbuat konfransından sonra nahar zamanı biz işgüzar müzakirələri davam etdirəcəyik.

Bir daha hörmətli Prezidentə Azərbaycana səfər etdiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Dost və qardaş Misir xalqına daim rifah və firavanlıq arzulayıram. Sağ olun.

***

Sonra Misir Prezidenti Əbdülfəttah Əs-Sisi bəyanatla çıxış etdi.

**Prezident Əbdülfəttah Əs-Sisinin bəyanatı**

– Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev.

Xanımlar və cənablar.

İlk növbədə, Azərbaycanda olmağımdan məmnunluğumu ifadə etmək istəyirəm. Diplomatik əlaqələrin qurulmasından bəri Azərbaycana gələn ilk Misir Prezidenti olmaqdan şərəf duyuram.

Biz keçən il ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyini qeyd etdik. Eyni zamanda ölkənizin Sizin rəhbərliyinizlə qazandığı böyük uğurları xüsusi qeyd etmək istəyirəm. Azərbaycan xalqının və hökumətinin səyləri nəticəsində yaradılmış bu gözəllikləri görmək bizi çox valeh etdi. Sizin ölkənizə davamlı inkişaf və tərəqqi arzu edirəm.

Həmçinin cənab Prezident İlham Əliyevə səmimi qəbula və qonaqpərvərliyə, buraya gəldiyimiz ilk gündən hiss etdiyimiz qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirmək istəyirəm.

Tərəflər arasında danışıqlar çox gözəl və müsbət mühitdə keçmişdir. İstərdim ki, ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı səylərimizi daha da gücləndirək. Ölkələrimiz arasında siyasi dialoqun hər iki xalqın mənafeyi naminə davam etdirilməsini istəyirik və müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın inkişafında maraqlıyıq. Xalqlarımızın dini, tarixi yaxınlıqlarını nəzərə alaraq, iqtisadi, ticari və mədəni sahələrdə əlaqələrimizi daha da inkişaf etdirmək niyyətindəyik.

Onu da deyim ki, danışıqlar zamanı iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına dair razılıq əldə olunmuşdu. Əlbəttə ki, bütün bunlar mövcud siyasi iradənin fonunda əldə olunub. Həmçinin Hökumətlərarası Müştərək Komissiyanın altıncı iclasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi ilə bağlı və komissiyanın növbəti iclasının gündəliyinə salınacaq məsələləri müzakirə etdik. Misirdə əczaçılıq sahəsində əldə olunmuş nailiyyətləri vurğuladıq, mövcud infrastrukturdan Azərbaycanın dərman ehtiyaclarının ödənilməsi üçün hazır olduğumuzu bir daha bildirdik.

Müzakirələr zamanı Misirdə elektrik enerjisi istehsalı sahəsində həyata keçirilən islahatları, yaradılmış infrastrukturu bir daha qeyd etdim. Son doqquz il ərzində əldə edilmiş bütün təcrübəmizi Azərbaycan tərəfi ilə bölüşməyə hazır olduğumuzu bildirdim.

Görüşlərdə Misirin xarici investorlar qarşısında mövcud maneələrin aradan qaldırılması, onlar üçün şəraitin yaradılması və hüquqi prosedurların daha da asanlaşdırılması istiqamətində görülən tədbirlər barədə danışdıq. Misirin Afrika qitəsinə qapı rolunu oynadığını nəzərə alaraq, ölkələrimiz arasında azad ticarət sahəsində imzalanmış sazişlərin vacib əhəmiyyət kəsb etdiyini vurğuladıq. Eyni zamanda, Bakı ilə Şarm-əl-Şeyx arasında birbaşa hava əlaqəsinin olmasını xüsusi qeyd edərək iki ölkə arasında birbaşa reyslərin sayının çoxaldılmasının vacibliyini, bunun iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığımıza töhfə verəcəyini bildirdim.

Cənab İlham Əliyevlə danışıqlar zamanı ümumi maraq kəsb edən bir çox regional və beynəlxalq məsələlərə dair müzakirələr apardıq. Görüş zamanı, həmçinin bütün dünyada siyasi dialoqun davam etdirilməsinin vacib olduğunu və məsələlərin hərbi güc yolu ilə həllinin heç də labüd olmadığını bildirdik. Bütün dünya COVID-19 pandemiyasından xilas olmamış Rusiya-Ukrayna böhranı beynəlxalq iqtisadiyyata və ticarətə daha bir zərbə vurdu, istər ərzaq təhlükəsizliyi, istər energetika, istər dənizçilik, istərsə də turizm və əczaçılıq sahələrinə çox mənfi təsir göstərdi.

Cənab Prezident İlham Əliyevə bir daha böyük uğurlar və müvəffəqiyyətlər diləyir, onun müdrik siyasəti nəticəsində qazanılmış bütün bu nailiyyətlərin davamlı olmasını arzu edirəm.

Biz Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında da əlaqələrin inkişafını dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik.

Sonda Azərbaycan xalqına və Azərbaycan Respublikasına davamlı inkişaf və rifah arzulayıram.

Çox sağ olun.

***

Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin şərəfinə nahar verilib.

# Macarıstan və Azərbaycan dost və strateji tərəfdaşdırlar

## *Azərbaycan Prezidenti İlham Əliyev Macarıstana rəsmi səfər edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Macarıstana rəsmi səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Macarıstanın müdafiə naziri Kriştof Salay-Bobrovniczky, Macarıstan Prezidentinin xarici əlaqələr və diplomatiya üzrə müşaviri Kriştof Altus və digər rəsmi şəxslər qarşıladılar.

***

Macarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 30-da Budapeşt şəhərinin Layoş Koşut meydanında rəsmi qarşılanma mərasimi olub.



Azərbaycanın və Macarıstanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Macarıstan Prezidenti xanım Katalin Novak Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Macarıstanın Dövlət himnləri səsləndi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Katalin Novaka, Macarıstanın dövlət və hökumət nümayəndələri isə Prezident İlham Əliyevə təqdim edildi.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Fəxri qarovul dəstəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Prezidenti Katalin Novakın qarşısından keçdi.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Budapeştin Qəhrəmanlar meydanında naməlum əsgərin məzarını ziyarət edib.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu.

***

Yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novak ilə təkbətək görüşü olub.

Dövlət başçıları əvvəlcə birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyev xatirə kitabına ürək sözlərini yazdı.

***

Yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novak ilə geniş tərkibdə görüşü olub.



Görüşdə çıxış edən Macarıstan Prezidenti Katalin Novak dedi:

– Bir daha xoş gəlmisiniz. Nümayəndə heyətləri üzrxahlığı qəbul etsin, çünki görüş gözlənilləndən çox çəkdi. Müzakirə edəcəyimiz məsələlər o qədər çox idi ki, hətta bu vaxtdan da artıq çəkə bilərdi. Lakin ümid edirik ki, gələn dəfə təkbətək görüş üçün daha çox vaxt ayrılacaq.

Gəldiyinizə görə hamınıza minnətdarıq. Macarıstana rəsmi səfərinizdən şəxsən şərəf hissi duyuram. Bilirəm ki, dünən artıq yaxşı proqramınız olub. Ümid edirəm ki, icra hakimiyyətinin rəhbəri, Baş nazirlə keçiriləcək görüşlə səfəriniz yaxşı davam edəcək. Mən isə dövlət başçısı olaraq dövləti təmsil edirəm.

Artıq qeyd etdiyim kimi, Siz nümayəndə heyətinin üzvləri ilə sarayın qarşısındakı meydanda qarşılanma zamanı tanış oldunuz. Lakin bizim yeni energetika nazirini hələ görməmisiniz. Enerji sahəsində əməkdaşlıq ölkələrimiz arasında ən mühüm məsələlərdən biridir.

Əfsuslar olsun ki, sizdən fərqli olaraq, bizim bəxtimiz o qədər də gətirməyib. Yüz ildən artıq dövr ərzində biz öz təbii enerji sərvətlərimizdən məhrum olmuşuq. Onlar artıq bizdə deyil. Enerji resurslarımızın şaxələndirilməsi üçün bizə yaxşı dost və tərəfdaşlar lazımdır. Çünki bildiyimiz kimi, hazırda biz Rusiyanın neft və qazından asılıyıq. Biz həmin məsələni, hazırda davam edən müharibəni və gözləntiləri müzakirə etdik. Bir sözlə, cənab Prezident, səfərinizə görə bir daha minnətdarıq.

x x x

Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək dedi:

– Təşəkkür edirəm, xanım Prezident. Dəvətə görə minnətdaram. Gözəl ölkənizə rəsmi səfərdə olmaqdan böyük şərəf hissi duyuram. Fürsətdən istifadə edərək mən Sizə uyğun olan vaxtda sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istərdim və beləcə, biz dialoqumuzu davam etdirə bilərik.

Macarıstanda yenidən olmaqdan məmnunam. Qeyd etdiyiniz kimi, dünən bizim Baş nazirlə çox dostcasına, qeyri-rəsmi və eyni zamanda müzakirələrlə dolu görüşümüz oldu. Bu gün biz söhbəti davam edəcəyik.

Nümayəndə heyətinin bütün üzvləri mənim göstərişlərimi alıblar ki, ikitərəfli gündəlikdə duran mühüm məsələlərin həlli üçün öz həmkarları ilə daim əlaqədə olsunlar. Əlbəttə ki, enerji gündəliyimizdə birinci yerdədir. Bu gün biz mühüm Anlaşma Memorandumunu imzalayacağıq və mən bunu çox mühüm addım hesab edirəm, çünki o, qaz təchizatı sahəsində əməkdaşlığa başlamaq üçün imzalanacaq ilk sənəddir.

x x x

Görüşdə ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Xüsusilə Macarıstanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə daim dəstək göstərdiyi qeyd edildi. Macarıstan ilə Azərbaycan arasında qarşılıqlı hörmət və etimadın olduğu vurğulandı. Macarıstanın Cənubi Qafqaz regionu, həmçinin Xəzər dənizi hövzəsi və Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin inkişafı qeyd olundu.

Ölkələrimizin ailə dəyərləri mövzusunda əməkdaşlığı barədə danışıldı, bu xüsusda beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin həyata keçirilməsi məsələləri ətrafında

*Ardı 3-cü səhifədə*

fikir mübadiləsi aparıldı, Azərbaycanda və Macarıstanda ailə dəyərlərinə böyük diqqətin göstərildiyi bildirildi.

Söhbət zamanı tələbə mübadiləsinin, Macarıstan tərəfindən azərbaycanlı tələbələrə təhsil təqaüdlərinin ayrılmasının iki ölkənin gənclər sahəsində əməkdaşlığına töhfə verdiyi diqqətə çatdırıldı.

Görüşdə, həmçinin minaların təmizlənməsi sahəsində əməkdaşlığa da toxunuldu.

***

Yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud tərkibdə görüşü olub.

Prezident İlham Əliyev və Baş nazir Viktor Orban rəsmi foto çəkdirdilər.

***

Yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olub.

Macarıstanın Baş naziri **Viktor Orban** çıxış edərək dedi:

– Cənab Prezident, ölkəmizə səfər etdiyinizə görə Sizə olduqca minnətdarıq. Biz iki ölkə arasında əməkdaşlıq üçün strateji əhəmiyyət kəsb edən bütün məsələləri müzakirə etdik. Xalqlar arasında son onillik ərzində əlaqələrin və ənənəvi əməkdaşlığın gücləndirilməsinə mərhələli şəkildə verdiyiniz töhfəyə görə minnətdarıq. Biz bunu yüksək dəyərləndiririk. Ölkələrimiz mühüm dostluğu indi yox, çoxdan başlayıblar. Siz təkcə enerjiyə görə bizim dostumuz deyilsiniz. Təsəvvür edirəm, indi Sizin yeni dostlarınız var. Çünki dünyada ölkənizin strateji əhəmiyyəti artmaqdadır. Lakin əməkdaşlığımız lap çoxdan başlayıb və təkcə maraqlara əsaslanmır, həmçinin mədəniyyət, adət-ənənələr sahəsindəki işbirliyinə söykənir.

– Cənab Prezident, Siz Macarıstanın Türk Dövlətləri Təşkilatına qoşulmasına hər zaman dəstək vermisiniz. Biz bunu yüksək dəyərləndiririk. Macarıstan türkdilli dövlət kimi həmin platformada iştirak edən ölkədir və bu bizim üçün nəinki mədəni, o cümlədən siyasi baxımdan əhəmiyyətlidir. Bir sözlə, cənab Prezident, ölkəmizə, Budapeştə çox xoş gəlmisiniz. Səfərinizə görə çox minnətdarıq. Keçmişdə təşəkkül tapmış dərin əməkdaşlığımızı yüksək dəyərləndiririk və ümid edirik ki, o, gələcəkdə də davam edəcək.

x x x

Azərbaycan Prezidenti **İlham Əliyev** çıxış edərək dedi:

– Təşəkkür edirəm, cənab Baş nazir. Sizi görməyimə çox şadam. Əməkdaşlığınıza görə minnətdaram. Biz, həqiqətən, iki dost və tərəfdaşıq. Biz öz münasibətlərimizi artıq strateji tərəfdaşlıq kimi müəyyən etmişik. Bu gün isə biz əməkdaşlığımızın strateji mahiyyətini təsdiqləyəcək digər sənədə imza atacağıq. Cənab Baş nazir söylədiyi kimi, münasibətlərimizin artıq yaxşı tarixi var. Bu, qarşılıqlı dəstək və etimad, eləcə də tərəfdaşlıq və dostluq tarixidir. Bu, həqiqətən, böyük zənginlikdir. Buna görə, biz hazırda əməkdaşlığın yeni sahələrini araşdırırıq. Tərəfdaşlığımız üçün artıq çox möhkəm zəmin yaranıb. Cənab Baş nazir qeyd etdiyi kimi, enerji əməkdaşlığımızın bir hissəsinə çevrilir. Əvvəlcə, bu heç zaman olmamışdır. Buna görə, əməkdaşlığımızın enerji tarixçəsi yoxdur. Elə oldu ki, hazırda Azərbaycanın enerji resursları əvvəlki dövrlə müqayisədə Avropaya daha çox lazımdır. Biz öz təchizatımızı artırmağa hazırıq və əlbəttə ki, əməkdaşlığı dost ölkələrlə başlamaq istəyirik. Bu gün biz enerji sahəsində uzunmüddətli işbirliyinə imkan yaradacaq müvafiq Anlaşma Memorandumunu imzalayacağıq. Lakin təkcə bu sahə deyil, çünki biz təhsil və mədəniyyət sahələrində əməkdaşlıq edirik. Biz Qarabağ bölgəsində yenidənqurma işlərində macar şirkətlərini görməyi ümid edirik. Bu gün biz cənab Baş nazirlə bu və digər məsələləri müzakirə etdik. Mən, həmçinin fürsətdən istifadə edərək cənab Baş nazir, Sizə münasib vaxtda Sizi Azərbaycana səfərə və fəal dialoqumuzu davam etdirməyə dəvət edirəm. Qonaqpərvərliyə görə bir daha minnətdaram.

x x x

Görüşdə enerji, təhsil və nəqliyyat sahələrində, həmçinin beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri müzakirə olundu. Əməkdaşlığın inkişafında hökumətlərarası komissiyanın əhəmiyyəti qeyd edildi. Əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün aidiyyəti dövlət qurumlarına tapşırıqlar verildi.

***

Yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Macarıstan sənədləri imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzaladılar.

"Azərbaycan Respublikasının Şuşa şəhəri və Macarıstanın Vesprem şəhəri arasında dostluq əlaqələrinin təsis edilməsi və mədəniyyət, turizm, şəhərsalma, elm, iqtisadiyyat və ictimai həyatın digər sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Vesprem şəhərinin meri Gyulya Porqa imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında təbii qaz əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto imzaladılar.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Macarıstanın Kənd Təsərrüfatı Nazirliyi arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə Macarıstanın Əcnəbilərə Nəzarət üzrə Milli Baş Direktorluğu arasında miqrasiya sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto imzaladılar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında dinc məqsədlərlə kosmik tədqiqat və kosmik fəaliyyətlərdə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto imzaladılar.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto imzaladılar.





***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban yanvarın 30-da Budapeştdə mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Macarıstanın Baş naziri bəyanatla çıxış edib.

**Baş nazir Viktor Orbanın bəyanatı**

– Xanımlar və cənablar, hər vaxtınız xeyir.

Möhtərəm cənab Prezident Əliyev.

Azərbaycandan olan əziz dostlarımız.

Azərbaycan ilə Macarıstanın rəhbərləri arasında keçirilən görüşlər hər zaman müstəsna əhəmiyyətə malikdir. Cənab Prezident və mən 10 ildən artıqdır ki, bir yerdə çalışırıq, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırırıq, əməkdaşlığı dərinləşdiririk və hər iki ölkənin mövqeyinə uyğun səviyyəyə gətirməyə çalışırıq. Ancaq bu, sadəcə, bu gün dostların görüşü deyil, bu gün strateji məsələlərə dair müzakirələr aparıldı, bu günə qədər olan strateji əməkdaşlığımız növbəti səviyyəyə qaldırıldı və bu əməkdaşlıq genişləndirildi. Bunun səbəbi isə ondan ibarətdir ki, hər iki ölkə yaxşı dərk edir və aydın görür ki, təkcə Avropa deyil, dünyanın digər bölgələri də təhlükələrlə üz-üzədir.

Bu gün beynəlxalq münasibətlərdə olan mühit əvvəlkindən olduqca təhlükəlidir. Bizim qonşuluğumuzda baş verən müharibə və Brüssel tərəfindən tətbiq edilmiş sanksiyalar Macarıstan üçün olduqca təhlükəli bir vəziyyət yaradıb, bizim enerji təhlükəsizliyimiz, Avropanın enerji təhlükəsizliyi həssas məqama qədəm qoyub. Burada yaranan bu şərait Azərbaycanın əhəmiyyətini dərhal artırdı. Bu əhəmiyyət bir növ sıçrayış etdi. Azərbaycan hər zaman bizim dostumuz olub, indi isə o, artıq bütün Avropa üçün strateji tərəfdaş olan ölkədir. Bunu bu gün Avropada hər kəs anlayır ki, bizim bu vəziyyətə olan cavabımız şaxələndirmədir. Müxtəlif mənbələrdən maksimal dərəcədə nəql ediləbiləcək həcmdən söhbət gedir.

Bu gün biz cənab Prezidentlə on il bundan öncəki təcrübəmiz haqqında danışdıq. O zaman hər iki ölkə artıq onun üzərində çalışırdı ki, Azərbaycandan enerji Avropaya nəql edilsin. O zaman həmin plan həyata keçirilmədi, yadınızdadırsa, bu, NABUKKO layihəsidir. Ola bilər bir vaxt gələcək tarixçilər buna diqqət yetirəcəklər ki, nə üçün NABUKKO layihəsi təxirə salındı. Əlbəttə, bu Rusiyanın Ukraynanı işğalından daha öncəki dövrə təsadüf edir. O zaman təbii ki, enerji resursları Avropaya nəql edilmədi, bu gün isə biz yenidən ssenari ilə üz-üzəyik ki, Azərbaycandan Avropaya enerji həcmləri nəql edilsin. Bu səbəbdən biz Azərbaycanın bu məsələyə sadiqliyini çox yüksək qiymətləndiririk ki, Azərbaycan Avropa İttifaqı ilə müvafiq sənəd imzalamışdır. Həmin sənədə uyğun olaraq 2027-ci ilə qədər Azərbaycan Avropaya nəql ediləcək qazın həcmini iki dəfə artıracaqdır.

Bununla yanaşı, biz digər bir saziş də imzalamışıq. Biz Azərbaycanda istehsal edilən elektrik enerjisini Avropaya gətirəcəyik. Xəritəyə baxsanız görərsiniz ki, həm təbii qaz, həm də elektrik enerjisi baxımından Azərbaycandan gələn bu enerji həcmləri Macarıstandan keçəcək. Ona görə də Macarıstan da bu məsələdə uduşlu vəziyyətdə olmaq arzusundadır. Həmçinin nəqliyyat marşrutu üzərində yerləşdiyimiz üçün Macarıstanın da rolu artacaqdır.

Mən çox şadam ki, Macarıstan həll yolunun – problemin deyil, həll yolunun tərkib hissəsi olacaqdır. Aydın məsələdir ki, infrastruktur layihələrinin inkişafına böyük ehtiyac olacaq. Burada nəhəng vəsaitlərdən söhbət gedir, böyük layihələr həyata keçirilməlidir. Biz artıq Bolqarıstanın, Rumıniyanın, Slovakiyanın enerji şirkətləri ilə danışıqlara və əməkdaşlığa başlamışıq ki, buraya lazımi vəsait cəlb edilsin. Rumınlar, bolqarlar və macarlar artıq əməkdaşlığa başlayıblar. Bu təkcə regional deyil, bu, pan-Avropa məsələsidir. Ona görə bizim gözləntimiz odur ki, Avropa Komissiyası bu layihələri dəstəkləyəcək. Xatırlatmaq istərdim ki, mən cənab Əliyevlə Buxarestdə bu yaxınlarda da növbəti saziş imzaladıq və bununla da elektrik enerjisi kabeli Qara dənizin dibi ilə çəkiləcək və bu, Azərbaycandan olan yaşıl enerjini Avropaya gətirəcəkdir. Budur bizim bugünkü şəraitimiz və bu, iki ölkənin rəhbərlərinin indiki görüşünü labüd edən bir şəraitdir.

Mən çox şadam ki, cənab Prezident Əliyev vaxt tapıb bizə səfər edib. Bu gün, əlbəttə ki, enerji və qazla zəngin olan ölkənin dostları çox olur, amma əmin etmək istərdim ki, biz Azərbaycanla bundan çox uzun müddət əvvəl dost olmuşuq və bu əməkdaşlığa görə cənab Prezidentə təşəkkür edirəm. Diqqətinizə görə çox sağ olun.

x x x

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli cənab Baş nazir.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Cənab Baş nazir qeyd etdiyi kimi, biz uzun illərdir ki, bir-birimizlə sıx təmasdayıq. Bizi dostluq əlaqələri bağlayır. Ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır.

Bu gün imzalanan strateji tərəfdaşlığın dərinləşməsinə dair Birgə Bəyannamə bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqləyir. Bu, strateji tərəfdaşlığa dair imzalanmış ikinci sənəddir və bir daha onu göstərir ki, həqiqətən, Macarıstan və Azərbaycan dost və strateji tərəfdaşdırlar.

Əlbəttə ki, uzun illər ərzində apardığımız uğurlu siyasət, birgə addımlar bu gün enerji sahəsində əməkdaşlıq üçün də çox güclü zəmin yaratdı. Cənab Baş nazir xatırladtı ki, vaxtilə NABUKKO layihəsi üzərində böyük işlər aparılmışdı. Ancaq maliyyə mənbələri müəyyən edilmədiyi üçün NABUKKO layihəsi icra edilmədi. Buna baxmayaraq, Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə, iki il bundan əvvəl Cənub Qaz Dəhlizi icra edildi. Bu, çox müasir enerji infrastrukturudur, uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır.

Keçən il Avropa Komissiyası ilə imzaladığımız sənədə əsasən biz qaz təchizatımızı iki dəfə, bəlkə, ondan da çox artırmağı planlaşdırırıq. Bunun üçün resurslar da var, siyasi iradə də var və tərəfdaşlarımızla təmaslar da var.

Çox şadam ki, vaxtilə tarixə qovuşmuş sayılan NABUKKO layihəsini biz indi canlandırmışıq. Artıq interkonnektorlar vasitəsilə

Ardı 4-cü səhifədə

Azərbaycan qazı Bolqarıstana, ondan sonra Rumıniyaya, ondan sonra Macarıstana və Macarıstandan sonra digər Avropa ölkələrinə çatdırılacaqdır. Biz bu barədə də müzakirələr apardıq. Macarıstan təkcə Azərbaycan qazının istehlakçısı deyil, eyni zamanda Azərbaycan qazını digər Avropa ölkələrinə tranzit edən ölkə kimi fəaliyyət göstərəcək.

Əlbəttə, enerji təhlükəsizliyi məsələləri bugünkü dünyada xüsusi əhəmiyyət daşıyır və hesab edirəm ki, dünya gündəliyinin ön sıralarındadır. Azərbaycanın zəngin neft-qaz resursları imkan verir ki, uzun illər bundan sonra – təbii qazla bağlı ən azı yüz il bundan sonra Avropa üçün etibarlı tərəfdaş olsun. Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı məhz belə də adlandırır: etibarlı tərəfdaş.

Yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı da Azərbaycanın önəmini daha da artırır. Əlbəttə ki, yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək. Hörmətli dostum qeyd etdiyi kimi, keçən ay imzalanmış sazişə əsasən Azərbaycan yaşıl enerjisini Avropaya çatdıracaq və bu gün bu məsələlər bir daha müzakirə edildi. Bir neçə gündən sonra Bakıda keçiriləcək birinci rəhbər komitədə bu layihədə cəmləşən ölkələr – Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya bir araya gələrək gələcək fəaliyyətin konsepsiyası üzərində işləməyə başlayacaqlar.

Bu, çox böyük sərmayə tələb edən layihədir. Burada həm yaşıl enerjinin istehsalı, ötürülməsi, bazarlara çatdırılması, eyni zamanda Qara dənizin dibi ilə kabelin çəkilməsi – bütün bu layihələr böyük maliyyə mənbəyi tələb edir, eyni zamanda çox ciddi koordinasiyanı tələb edir. Ona görə biz Bakıda fevralın 3-də keçiriləcək toplantıda ilkin addımı atacağıq və beləliklə, Avropa qitəsinin enerji təhlükəsizliyi daha dolğun və əhatəli şəkildə təmin ediləcəkdir.

Bizim əməkdaşlığımızın böyük hissəsi enerji məsələlərinə həsr olunsa da, təkcə bu məsələlərlə məhdudlaşmır. Biz, eyni zamanda nəqliyyat sahəsində çox böyük planlarımızı həyata keçiririk. Deyə bilərəm ki, biz dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlamışıq. Bu layihənin də böyük potensialı var. Çünki Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycan ərazisindən keçən yüklərin həcmi kəskin artmışdır. Təkcə keçən il tranzit yüklərin həcmi 75 faiz artmışdır. Azərbaycanda mövcud müasir nəqliyyat infrastrukturu – istər tankerlər, gəmilər olsun, istər böyük dəniz ticarəti limanı olsun, dəmir yolları olsun, bunlar hamısı müasirdir və bütün lazımi tələblərə cavab verir. Ona görə Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkə olsa da, hesab edirəm ki, Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilə bilər. Burada Avropa ölkələri ilə və xüsusilə bizim üçün Avropa İttifaqı arasında ən yaxın tərəfdaşlarımızdan biri olan Macarıstanla əməkdaşlıq üçün çox yaxşı imkanlar var.

Bununla paralel olaraq, təhsil sahəsində çox yaxşı nəticələr var. Mən cənab Baş nazirə fürsətdən istifadə edərək təşəkkürümü bildirmək istəyirəm ki, 200 Azərbaycan gənci Macarıstan hökumətinin dəstəyi ilə alınmış təqaüd – tələbə təqaüdləri ilə Macarıstanda oxuyurlar. Bu, əlbəttə ki, Azərbaycanda kadr potensialının yaradılması istiqamətində çox önəmli hadisədir, eyni zamanda dostluğumuzu da böyük dərəcədə gücləndirəcəkdir.

Əməkdaşlıq üçün vacib olan digər sahə minatəmizləmə sahəsidir. Azərbaycan İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində bu sahədə böyük problemlərlə üzləşib, bir milyondan çox mina təmizlənməlidir. Müharibədən sonra iki il ərzində 300-ə yaxın Azərbaycan vətəndaşı ya həlak olub, ya da ki, ağır yaralanıb. Ona görə bu sahədə Macarıstanın təcrübəsini nəzərə alaraq biz əməkdaşlıq üçün yaxşı imkanlar görürük.



Bununla paralel olaraq, bu gün, eyni zamanda macar şirkətlərinin azad edilmiş Qarabağ və Zəngəzur torpaqlarında fəaliyyəti ilə bağlı da fikir mübadiləsi aparılmışdır. Yaxın gələcəkdə, bəlkə də, bir həftə bundan sonra biz konkret layihələrin müzakirəsinə başlayacağıq. Biz çox maraqlıyıq ki, şəhərsalma istiqamətində hansı ki Macarıstanın çox böyük təcrübəsi var, biz birgə işləyək. Çünki on min kvadratkilometrə bərabər olan azad edilmiş torpaqlarda bir daş daş üstə qalmayıb. Bütün binalar, bütün infrastruktur işğal dövründə dağıdılıb və biz, əlbəttə ki, bu bölgələri yenidən canlandıracağıq. Artıq Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib.

Yəni bizim əməkdaşlığımızın çoxşaxəli mahiyyəti göz önündədir. Təbii ki, enerji sahəsi indi dünya və Avropa gündəliyini zəbt etdiyi üçün əsas rol oynayır. Ancaq bizim əməkdaşlığımızın başqa sahələri var. Əsas odur ki, Macarıstan və Azərbaycan iki dost və tərəfdaş ölkə kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi də bir-birinə əsirgəməyəcək.

Hörmətli cənab Baş nazir, göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək Sizi Azərbaycana səfərə dəvət edirəm. Sağ olun.

***

Yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Macarıstanın Baş naziri Viktor Orbanın xanımı Aniko Levai ilə görüşü olub.

***

Yanvarın 30-da Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın şərəfinə Macarıstanın Baş naziri Viktor Orban və xanımı Aniko Levai tərəfindən rəsmi nahar verilib.

Macarıstanın Baş naziri və Azərbaycan Prezidenti naharda çıxış ediblər.

**Baş nazir Viktor Orbanın çıxışı**

– Hər vaxtınız xeyir, hörmətli xanımlar və cənablar.

Sizin hamınızı səmimi-qəlbdən salamlamaq istəyirəm.

Mən ana dilimdə danışacağam və sizin dilinizə tərcümə olunacaq. Eyni ölçüdə olan ölkələr, hətta rəsmi danışıqları ingilis dilində aparsalar belə öz ana dilindən istifadə etməyi xoşlayır. Macarıstan 2010-cu ildə çox mühüm bir qərar qəbul etdi. Biz strateji tərəfdaşların harada tapa biləcəyimizi müəyyən etmək üçün dünyaya nəzər saldıq. Biz təkcə maliyyə maraqları deyil, daha möhkəm dostluq axtarışındaydıq. Çünki NATO, Avropa İttifaqı – bunlar gözəl şeylərdir. Amma onlar artıq o gözəlliyini itirib. Biz 2010-cu ildə dedik ki, biz tək özümüzə arxalana bilmərik. Biz bu qərarı verdik, gəlin Azərbaycana tərəf gedək. Mənim Prezident Əliyevlə və birinci xanımla dostluğum məhz o vaxta təsadüf edir və mən birinci xanımı da səmimi-qəlbdən salamlamaq istəyirəm.

Bilirsiniz ki, macar tarixçilərinin fikrinə görə, Avropa dağlarının şərq tərəfindən uzun səfərimiz zamanı biz çağdaş Azərbaycanın ərazisində müəyyən vaxt keçirmişik. Məhz buna görə biz Prezident Əliyevin Macarıstanın Türk Dövlətləri Təşkilatına müşahidəçi üzvü olaraq qoşulmasını dəstəklədiyinə görə minnətdarıq. Çünki iki ölkə arasında mədəni oxşarlıq var. Bu o qədər də açıq-aşkar deyil. Çünki biz müəyyən vaxtda xristian olduq, lakin Azərbaycan öz müsəlman kimliyini qoruyub saxlaya bildi. Dostları qazanmaq o qədər də asan deyil. Macarlar üçün bu, xüsusilə çətindir. Dost qazananda sən dostunun bütün səhvlərini bağışlamalısan. Biz macarlar da bir neçə səhv etmişik. Beləliklə, biz səhvlərimizi bağışlamağa hazır olan dostları tapmalıyıq. Həmişə mükəmməl olan dostları qazanmaq asandır. Mən bunu da Prezident Əliyevə dedim. Macarıstanın qismində siz mükəmməl olmayan dost qazanırsınız, cənab Əliyev. O da maraqlı bir şey idi. Bundan daha da önəmlisi var. Eyni dalğada olan ölkələr özlərinin strateji və geostrateji yerləşmə nöqteyi-nəzərindən oxşar olub-olmadıqlarını anlayırlar. Bunu anlamaq üçün alim olmaq lazım deyil. Azərbaycan cənubda İranla, şimalda Rusiya ilə sərhəddir. Macarıstan isə qərbdə Almaniya, şərqdə Rusiya ilə sərhəddir. Biz bundan keçmişik. Biz vəziyyətə bələdik. Belə bir mürəkkəb vəziyyətdə xalqı idarə etməyin nə dərəcədə çətin olduğunu bilirik. Bu bizə dostluğumuzun möhkəmlənməsində çox kömək edib. Biz xarici siyasətdə bir-birimizi başa düşürük. Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm.

Cənab Prezident, ötən onilliyə görə biz Sizə həmişəlik minnətdarıq. Biz sizin enerjinizə görə sizin dostunuz deyilik, çünki indi sizin çoxlu enerji dostunuz var. Biz sizinlə mədəniyyəti, oxşar keçmişi paylaşırıq. Biz Sizin bizə təklif etdiyiniz imkanları çox yüksək dəyərləndiririk. Siz macarlara Azərbaycanın neft sənayesinə sərmayə yatırmağa icazə verdiniz. Bu da bizim xaricə yatırdığımız ən böyük sərmayələrdən biri, bəlkə də, ən böyüyüdür. Bizim şanslarımız var. Özümüzü yaxşı aparsaq bizim gələcəkdə imkanlarımız olacaq.

Cənab Prezident, səfəriniz üçün təşəkkür edirəm. Birinci xanım, həyat yoldaşınızı müşayiət etdiyiniz üçün Sizə xüsusilə minnətdarıq. Biz indi Prezidenti və birinci xanımı salamlayırıq və bu da indi siyasətdə adət olunan hal deyil. Prezident Əliyevdən misal olaraq deyə bilərəm ki, ölkəyə rəhbərlik etmək istəyirsənsə sizin bütöv ailəniz olmalıdır. Çünki ailənizdə hər şey qaydasında olmasa, ölkəyə necə rəhbərlik edə bilərsiniz? Beləliklə, biz, sadəcə, Prezident və xanımını deyil, böyük ailənin üzvlərini salamlayırıq. Yaşasın Azərbaycan!

x x x

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli cənab Baş nazir.

Hörmətli birinci xanım.

Əziz dostlar.

Mehriban və mən Sizin gözəl ölkənizdə özümüzü evimizdəki kimi hiss edirik. Bizə göstərilən qonaqpərvərlik bizi çox xoşbəxt edir.

Əziz dostum cənab Baş nazir öz çıxışında bizim haqqımızda çox gözəl sözlər deyib, buna görə mən çox təşəkkürümü bildirmək istəyirəm. Həqiqətən, Macarıstan və Azərbaycan həm strateji tərəfdaşlardır, eyni zamanda yaxın dost ölkələrdir. Hazırda bizi birləşdirən bir çox bağlar var. Amma hesab edirəm ki, onların arasında təməl amillər bizim dünyaya olan ortaq baxışlarımızdır. Bu bizi daha da bir-birimizə sıx bağlayır və dostluğumuzu daha da gücləndirir. Milli ənənələrə sadiqlik, ailə dəyərlərinin qiymətləndirilməsi kimi prinsiplər bizim həyat prinsiplərimizdir. Həm ikitərəfli münasibətlərə baxışlarımız eynidir, həmçinin dünyada gedən prosesləri də biz eyni prizmadan qiymətləndiririk.

Cənab Baş nazirlə artıq on ildən çoxdur ki, yaxın əlaqələrimiz var, deyə bilərəm ki, dostluq edirik. Həm əziz dostum Viktor dəfələrlə Azərbaycanda olub, mən artıq bir neçə dəfə Macarıstana səfərlər etmişəm və biz hər il ən azı bir neçə dəfə beynəlxalq tədbirlərdə də görüşürük. Hər bir fürsətdən yararlanmaq istəyirik ki, həm söhbət edək, eyni zamanda ölkələrimiz üçün vacib olan məsələləri müzakirə edək və onları həll edək.

Əziz dostum dediyi kimi, biz enerji dostları deyilik, biz əsl dostlarıq. Deyə bilərəm ki, son bir il ərzində Azərbaycana enerji resurslarının təchizatı ilə bağlı 10-dan çox ölkədən sifarişlər gəlmişdir, xahişlər edilmişdir. Deyə bilərəm ki, bütün bu təkliflər indi müzakirə edilir və adi qaydada müəyyən bürokratik prosedurları nəzərə almaq şərtilə müzakirə olunur və sonra, əlbəttə ki, qərarlar qəbul ediləcək. Amma Macarıstanla Azərbaycan arasında təbii qaz sahəsində əməkdaşlığa dair bu gün imzalanmış sənəd deyə bilərəm ki, cəmi üç gün ərzində hazırlanmışdır və bu gün imzalanmışdır. Yəni üç gün, özü də bu, "weekend" günləri idi. Amma o yetərli oldu ki, biz çox önəmli strateji addımı bu gün ataq və öz imzamızı qoyaq. Bu, bir daha əlaqələrimizin nə qədər səmimi olmasından xəbər verir. Əlaqələrimizin ən böyük dəyəri məhz budur – qarşılıqlı etimad, qarşılıqlı hörmət və qarşılıqlı maraqlar üzərində birgə fəaliyyətimiz.

Bu gün mətbuata verdiyimiz açıqlamalarda biz bir çox önəmli məsələləri əhatə etdik, onları təkrarlamaq istəmirəm. Ancaq bir şeyi burada əlavə qeyd etmək istəyirəm ki, doğrudan da, biz özümüzü burada evimizdəki kimi hiss edirik, dostlar arasında hiss edirik.

Əlbəttə, Viktora əsas qiymətini dost macar xalqı vermişdir və dəfələrlə ona etimad göstərərək həm öz müdrikliyini göstərdi, eyni zamanda onun fədakar fəaliyyətinə düzgün qiymət verdi. Əziz dostuma gələcək uğurlar, gələcək qələbələr arzulayıram. Biz siyasi müstəvidə veteranlar sayıla bilərik. Yaşımıza görə yox. Viktor məndən də tez rəhbər seçildi, 35 yaşında. Mən ondan bir qədər sonra, 41 yaşımda. Hələ ki, bizim gücümüz yerindədir və əminəm, şəxsi dostluğumuz və ölkə rəhbərləri kimi əməkdaşlığımız bundan sonra da uzun illər davam edəcək.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana rəsmi səfəri yanvarın 30-da başa çatıb.

Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Macarıstanın iqtisadi inkişaf naziri Marton Nagy, Macarıstan Prezidenti Ofisinin rəhbəri Gergely Ekler və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**



## İqtisadiyyat naziri Türkiyənin Naxçıvandakı Baş konsulu ilə görüşüb

Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat naziri Tapdıq Əliyev Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya ilə görüşüb. Tapdıq Əliyev rəsmi qonağı salamlayaraq onu yeni təyinatı ilə bağlı təbrik edib.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim diyardakı fəaliyyətindən məmnunluğunu ifadə edən Asip Kaya Türkiyənin Naxçıvandakı Baş konsulu olmasından qürur duyduğunu ifadə edib.

Görüşdə qarşılıqlı hörmətə, dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrdə yüksələn xətlə inkişaf etdiyi vurğulanıb, ikitərəfli iqtisadi münasibətlərin daha da möhkəmləndirilməsi perspektivləri qeyd edilib.

Tərəflər iqtisadiyyatın müxtəlif sahələrində tərəfdaşlığın gücləndirilməsi, mövcud ticarət dövriyyəsinin artırılması və investisiya əməkdaşlığının genişləndirilməsi barədə müzakirələr aparıb.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

# "Xalq qəzeti"nin əməkdaşları Naxçıvana gəliblər

*Ölkəmizin gündəlik ictimai-siyasi həyatını geniş oxucu kütləsinə təqdim edən "Xalq qəzeti"nin əməkdaşlarından baş redaktor müavini, Əməkdar jurnalist Tahir Aydınoğlu və İqtisadiyyat şöbəsinin müdiri Vaqif Bayramov Naxçıvan Muxtar Respublikasına gəliblər.*

Qonaqlar səfər çərçivəsində əvvəlcə "Şərq qapısı" qəzeti redaksiyasında olub, mətbuat orqanının əməkdaşları ilə yaradıcılıq müzakirələri aparıblar, gələcək əməkdaşlıq perspektivləri müəyyənləşdirilib.

Sonra AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayevlə görüş olub. Görüşlərdə jurnalist qonaqlara muxtar respublikanın elmi-pedaqoji potensialı, xüsusilə də ali təhsil müəssisəsində Jurnalistika ixtisası üzrə kadr hazırlığı haqqında ətraflı məlumat verilib. Muxtar respublikanın ali təhsil, elmi, ziyalı mühitinin



"Xalq qəzeti"ndə işıqlandırılması, elm adamlarının, ziyalıların, müəllimlərin mətbuat orqanı ilə əlaqələrinin gücləndirilməsi barədə fikir mübadiləsi aparılıb, gələcək perspektivlər müzakirə olunub.

Naxçıvan Biznes Mərkəzinə gələn qonaqlar mərkəzin sərgi salonunda nümayiş edilən, muxtar respublikada istehsal olunan məhsullarla əyani tanış olub, yerli müəssisələrin fəaliyyəti ilə maraqlanıblar. Məlumat verilib ki, burada muxtar respublikada fəaliyyət göstərən 55 sahibkarlıq subyektinin, 102 müəssisənin 171 adda 1330 çeşiddə məhsulları nümayiş olunur. Ölkə Prezidentinin rəhbərliyi ilə muxtar respublikada sahibkarlığın bütün parametrlər üzrə inkişafı yerli istehsalın həcminin artmasına və xarici ticarət əlaqələrinin genişlənməsinə töhfə verib, ixracyönümlü məhsul istehsalına nail olunub. Hazırda muxtar respublikada 384 növdə məhsul istehsal edilir, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

Məlumat üçün bildirək ki, "Xalq qəzeti" əməkdaşlarının səfərinin əsas məqsədi Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə muxtar respublikada aparılan islahatlarla, dövlət siyasətinin bu regionda daha mütəşəkkil həyata keçirilməsi istiqamətində görülən işlərlə tanış olmaq, sosial, iqtisadiyyat, elm və təhsil, eləcə də digər sahələr haqqında



silsilə materiallar hazırlamaqdır. Qonaqlar iki gün müddətində Naxçıvanda fəaliyyət göstərən müxtəlif təşkilatlarda, istehsal müəssisələrində olacaq, informasiya əldə etmək üçün bir sıra görüşlər keçirəcəklər.

**Nail ƏSGƏROV**

# Ekoaksiyalar ümumbəşəri humanitar məqsədlərə xidmət edir

*Ətraf mühitin, əl dəyməmiş təbiətin qorunub saxlanılması üçün həyata keçirilən müxtəlif kampaniyalar, o cümlədən ekoaksiyalar həmişə dünyada diqqət mərkəzində olub. Bu gün planetin bir sıra yerlərində, o cümlədən doğma Qarabağda ekofəalların apardığı dinc ekoloji aksiyaların mahiyyəti də təbiət-insan vəhdətində sağlam düşüncənin, dərin humanitar məqsədlərin qalib gəlməsinə yönəlmişdir. Ekoaksiyaların tarixi bunu deməyə əsas verir.*

Ekoloji aksiyalar hələ iki min il əvvəl qədim Roma dövründə hava və suyun çirklənməsinə qarşı, Çin və Hindistanda torpağın qorunması məqsədilə baş vermişdir. Avropada orta əsrlərdə baş vermiş epidemiyalar da zaman-zaman ətraf mühitin çirklənməsinə qarşı mübarizəni gündəmə gətirmişdi.

İlk mütəşəkkil ekoloji hərəkat XIX əsrin sonlarında sənaye inqilabı zamanı çirklənmə, Avropada şəhərlərin böyüməsi ilə kənd yaşayış yerlərinin və eləcə də ABŞ-da vəhşi təbiətin qorunması ilə bağlı narahatlıqlardan yaranmışdır. O zamanlar ABŞ Meşə Xidmətinin ilk rəisi Gifford Pinchot (1865-1946) tərəfindən hazırlanmış resursların mühafizəsinin ilk fəlsəfi düşüncələri təbii resurslardan ağıllı və səmərəli istifadəni özündə ehtiva edirdi. Daha sonra ABŞ-da həyata keçirilən digər ekoloji addımlar insanların təbiətin fatehlərindən təbiətin vətəndaşına çevrilməsi lazım olduğunu iddia edən biosentrik fəlsəfənin əsasını qoydu. Nəticədə, XX əsrin ortalarına qədər mövcud olan təbiəti mühafizə işləri ilə məşğul olan elmi təşkilatlarla yanaşı, müəyyən lobbi qrupları da fəaliyyət göstərirdi. Bu sahədə ABŞ dünyaya liderlik etsə də, Avropa və Okeaniyada da diqqətəlayiq layihələr olmuşdur.




1960-cı illərdən başlayaraq ətraf mühitin qorunması üzrə təkamül edən müxtəlif fəlsəfi istiqamətlər fəal qeyri-hökumət təşkilatları və ekologiya yönümlü siyasi partiyalar şəklində "yaşıl" siyasi hərəkatların yaradılması yolu ilə özündə siyasi güc də qazandı. Bu hərəkatların müxtəlifliyinə baxmayaraq, onları birləşdirən əsas cəhətlər ətraf mühitin qorunması, qərarların verilməsində ən təməl demokratiya, sosial ədalət və zorakılığa qarşı birgə mübarizə idi. Onların bu hərəkatı ekoterrorizmə, ağacların kəsilməsinə və mədən sənayesi tərəfindən təbiətin korlanmasına qarşı (hazırda bizim Qarabağda və Almaniyada olduğu kimi) haqlı mübarizə sayılırdı.

Həmin dövrdən başlayaraq dünyada keçirilən ekoaksiyaların zəngin tarixçəsi vardır. Belə ki, 1970-ci və 80-ci illərdə Tasmaniyada Pedder gölünün daşmasının və Franklin çayının bəndinin qarşısını almaq üçün keçirilən etiraz kampaniyaları, 28 mart 1979-cu ildə ABŞ-dakı Üç Mil adasında və 26 aprel 1986-cı ildə Çernobılda baş vermiş atom qəzalarından sonra ABŞ və Qərbi Avropada nüvə enerjisinin inkişafına qarşı etirazlar, Avstraliyanın şimalında, o cümlədən Cabiluka mədənində uran hasilatı ilə bağlı aborigen xalqların həyatına yaranan problemlərlə əlaqədar onilliklər boyu davam edən etirazlar, İndoneziyada və Braziliyanın Amazon hövzəsində meşələrin qırılmasına qarşı etirazlar, həmçinin sıx gündəmdə olan və insan fəaliyyəti nəticəsində buraxılan istixana qazlarının törətdiyi iqlim dəyişikliyi ilə əlaqədar bu gün Azərbaycanın da öncül olduğu hərəkatlar bunlara misaldır. Bütün bunlara əsaslanaraq, ekoaksiyaların humanitar məqsədini insan hüquqlarının qorunması kimi də izah etmək mümkündür. Belə ki, daha az sənayeləşmiş və ya inkişaf etməkdə olan ölkələrdəki ekoloji hərəkatlarda iştirak edən insanlar daha çox demokratikləşmə, siyasi və insan hüquqları, o cümlədən qadınların və yerli xalqların hüquqları kimi məsələlərdə kütləvi fəallıqda daha yaxından iştirak etmişlər. Hindistanda meşələrin mühafizəsini qadınların hüquqları ilə əlaqələndirən Çipko hərəkatını və insanların ətraf mühit və inkişaf məsələlərində iştirak etmək hüququ uğrunda mübarizə aparan Taylanddakı koalisiyatipli Yoxsullar Assambleyasını da bunlara misal olaraq göstərmək olar.

İnkişaf etmiş ölkələrdə isə ekohərəkatlar daha da irəli müstəviyə daşınaraq siyasi mübarizə zəminində seçki elektoratı toplamaq, əhalinin bu sahədə həssas təbəqəsinin səslərini qazanmaq üçün güclü bir vasitə kimi istifadə olunur. 1970-ci illərin əvvəllərində ekoloji hərəkatlar seçkilərdə ekoloji düşüncəli namizədlərin də irəli sürülməsi və "Yaşıl" siyasi partiyaların qeydiyyatı bunlara bir misaldır. Bu baxımdan dünyanın ilk "Yaşıl" partiyaları kimi Yeni Zelandiyada milli əsaslı partiya olan Dəyərlər Partiyası və Avstraliyanın Tasmaniya əyalətində təşkil edilən Birləşmiş Tasmaniya qrupunu misal göstərmək olar. Daha sonra 1979-cu ildə İsveçrədə Milli qanunverici or-





qana ilk açıqfikirli "yaşıl üzv" seçildi. 1990-cı illərin ortalarında "yaşıllar" Dublin və Roma kimi Avropanın paytaxt şəhərlərində mer vəzifəsini də iddia etdilər. 1981-ci ildə isə dörd "yaşıl üzv" Belçikada qanunverici orqanda yerlər qazandı. Avropada ən uğurlu ekoloji partiya isə 1980-ci ildə qurulan Almaniya Yaşıllar Partiyası (die Grünen) olmuş, 1998-ci ildə onlar Sosial Demokrat Partiyası ilə hakim koalisiya yaradaraq partiyanın lideri Yoşka Fişer ilə ölkənin xarici işlər naziri vəzifəsini də qazanmışdılar.

1980-ci illərin sonlarından başlayaraq ekofəallıq bütün dünyada həm qlobal, həm də milli siyasi qüvvəyə çevrildi. Bəzi ekoloji qeyri-hökumət təşkilatları, məsələn, "Greenpeace", "Yer dostları" və "Ümumdünya Vəhşi Təbiət Fondu" öz lobbiçilik kampaniyalarını koordinasiya etmək üçün bütün dünyada ofislər və mərkəzləşdirilmiş beynəlxalq qərargahlar yaradaraq əhəmiyyətli beynəlxalq qurumlar halına gəlib, sivil dövlətlər və onların hökumətləri ilə əlaqəli işləməyə başladılar. Buna təsir edən mühüm faktorlardan biri isə, şübhəsiz, ekodüşüncənin artıq beynəlxalq səviyyədə dəstəklənməsi olmuşdur. Belə ki, 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Stokholmda keçirilən İnsan Ətraf Mühit Konfransından sonra dünyada çoxtərəfli ekoloji sazişlərin bağlanılması və öhdəliklərin götürülməsi daha da sürətləndi. Nəticədə, 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən 180-ə yaxın ölkənin və müxtəlif biznes qruplarının, qeyri-hökumət təşkilatlarının iştirak etdiyi Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Konfransı (Yer sammiti) ətraf mühitlə bağlı ictimai müzakirələrin xarakterini dəyişərək ona tamamilə yeni bir əhəmiyyət verdi. 1997-ci ilin dekabrında Yaponiyanın Kyoto şəhərində qlobal iqlim dəyişikliyinə qarşı birgə tədbirlər məqsədilə 192 ölkənin bağladığı müqavilə, bundan sonra həmin istiqamətdə BMT səviyyəsində keçirilən sammitlər, həmçinin 2008-ci ildə təsis olunmuş və planetimizin gələcəyində payı olan dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirən və ötən günlərdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin də açılış mərasimində iştirak etdiyi Əbu-Dabi Dayanıqlılıq Həftəsi bu sahədəki ən mühüm beynəlxalq platformalardandır.

Göründüyü kimi, bütün bu mühüm beynəlxalq ekoloji məzmunlu mötəbər tədbirlər son 30 ildə daha böyük əhəmiyyət və SSRİ-nin dağılması ilə yeni üzvlərlə güc qazanmışdır. Burada qeyd etmək yerinə düşər ki, özünün qeyri-ekoloji addımları, təbii resurslardan rasional deyil, hərcmərcliklə istifadəsi ilə tarixdə qara ləkə qoymuş SSRİ-də və keçmiş sosialist blokunda bu sahədə inkişaf zəif olmuşdur. Məhz buna görə də bu gün hazırda həmin rejimin son tör-töküntüsü olan Ermənistanda hazırda fəaliyyətdə olan köhnə texnologiyalı və bütün bölgə üçün təhlükə yaradan Metsamor Atom Elektrik Stansiyasına, eləcə də Qərbi Zəngəzurdakı Qafan mis mədənlərinin vəhşicəsinə istismarına və Qarabağın yeraltı və yerüstü sərvətlərin talanmasına göz yuman hayların ekoloji mədəniyyətsizliyi heç də təəccüblü deyildir. Buna görə də Ermənistanın Türkiyə ilə sərhədboyu Araz çayını çirkləndirdiyinə görə bütün bölgəni ekoloji təhlükə ilə qarşı-qarşıya qoymasına görə gələcəkdə ekoaksiyaların da təşkil olunacağını indidən proqnozlaşdırmaq mümkündür.

Bəli, bu gün ekoloji prinsiplər cəmiyyətin dayanıqlı inkişafının əsas təməl sütunlarından biridir. Artıq coğrafi mövqeyindən və inkişaf səviyyəsindən asılı olmayaraq, bütün bəşəriyyət başa düşür ki, yaşadığımız Yer kürəsi hamımızın ortaq evidir. Ona görə də bu gün Avropa İttifaqında olduğu kimi, bir gün, bəlkə, bütün dünyada sərhədlər şərti olduğu zaman insanlar keçmişdə atılan ekoloji addımlara qiymət verəndə kimlərisə alqışlayacaq, kimlərəsə də lənət oxuyacaqlar. Ona görə də gəlin həmişə birincilərdən olaq.

Bu gün Laçın-Xankəndi yolundakı ekofəal gənc dostlarımız kimi.

**Əli CABBAROV**

# "Qafqazın İsveçrəsinə səyahət – Naxçıvan" adlı kitabın təqdimat mərasimi keçirilmişdir



*Naxçıvan şəhərindəki "Görüş yeri" kafesində "Qafqazın İsveçrəsinə səyahət – Naxçıvan" adlı kitabın təqdimat mərasimi olmuşdur.*

Kitabın müəllifi, "Naxçıvan Travel" şirkətinin direktoru Natiq Paşayev mərasimə toplaşanları salamlayaraq kitabın yazılmasında qarşıya qoyulmuş məqsəd və Naxçıvanın turizm potensialının təbliğində əhəmiyyətindən danışmışdır.

Kitabda yer alan ön sözün müəllifi, Naxçıvan Dövlət Universitetinin dosenti Əli Cabbarov bu dəyərli çap məhsulunun məziyyətlərindən bəhs edərək bildirmişdir ki, Naxçıvanın turizm ehtiyatlarının cazibədarlığı hazırda dünya turistlərinin diqqətindədir. Qeyd olunmuşdur ki, Natiq Paşayev 19 illik turizm fəaliyyəti dövründə təkcə ötən il 1200-dən çox olmaqla, ümumilikdə, dünyanın çox sayda ölkəsindən çox sayda əcnəbi turistin Naxçıvana səyahətini təşkil etmişdir. Bu mənada, yüz səhifəlik, maraqlı fotoillüstrasiyalı bu kitab bütün bu səyahətlərin təəssüratları əsasında qələmə alınaraq Naxçıvana səyahət etmək istəyən turistlərin və turizm araşdırmaçılarının hərtərəfli bələdçisi də ola bilər. Bu mənada, kitab müasir Naxçıvan turizminin təbliği baxımından ilk belə mənbədir.

Təqdimat mərasimində çıxış edən qonaqlar kitabın faydalarından bəhs edərək, qarşıdakı dövrdə Naxçıvanda turizmin daha da inkişaf etdirilməsi baxımından belə nəşrlərin əhəmiyyətini vurğulamış, müəllifə işlərində yeni uğurlar arzulamışlar.

Sonda kitabın müəllifi təqdimat mərasimində iştirak edənlərə minnətdarlıq edərək qarşıdakı yeni turizm mövsümündə "Hello Nakhchivan" adlı ingiliscə kitabının da işıq üzü görməsi üçün çalışdığını bildirmiş, kitabları imzalamışdır.

**Xəbərlər şöbəsi**

## 2022-ci ildə daşınmaz əmlakın dövlət qeydiyyatı artıb




Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən vətəndaşlara göstərilən xidmətlərin müasir səviyyədə təşkili və tətbiq edilən yeniliklər nəticəsində daşınmaz əmlakın qeydiyyatı sadələşib. 2022-ci ildə daşınmaz əmlak üzərində hüquqların dövlət reyestrində qeydiyyatı üzrə vətəndaşlara keyfiyyətli xidmət göstərilib. 2021-ci illə müqayisədə dövlət reyestrində qeydiyyata alınan daşınmaz əmlak obyektlərinin sayı 1 faiz artıb.

Ötən il ərzində Naxçıvan şəhəri üzrə 3205, Şərur rayonu üzrə 1592, Babək rayonu üzrə 1110, Ordubad rayonu üzrə 486, Culfa rayonu üzrə 471, Şahbuz rayonu üzrə 324, Kəngərli rayonu üzrə 269, Sədərək rayonu üzrə 119, ümumilikdə, muxtar respublika üzrə 7576 daşınmaz əmlak obyekti qeydiyyata alınıb. Bunun 2398-i ilkin, 5178-i təkrar qeydiyyatdır.

Qeydiyyata alınmış daşınmaz əmlak obyektləri bölmələr üzrə 2770 torpaq sahəsi, 1573 mənzil, 2983 fərdi yaşayış evi, 13 bağ evi, 104 qeyri-yaşayış binası, 107 qeyri-yaşayış sahəsi, 26 əmlak kompleksi kimi müəssisədən ibarət olub.

Hesabat dövründə daxil olmuş müraciətlər əsasında 2365 əmlaka dair texniki pasport, 3341 torpaq sahəsinə dair plan-ölçü olmaqla, ümumilikdə, 5706 texniki sənəd tərtib edilib. Bu da 2021-ci illə müqayisədə 0,2 faiz çoxdur. Hüquqi və fiziki şəxslərə daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına dair 6225 arayış verilib.

Yanvar-dekabr ayları ərzində 87 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 54 ailə təsərrüfatının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## “Erkən nikah və onun fəsadları” mövzusunda seminar keçirilib

*Şərur rayonunda yerli sakinlərin iştirakı ilə “Erkən nikah və onun fəsadları mövzusunda” maarifləndirici seminar keçirilib.*



Mövzu ətrafında çıxışlarda qeyd olunub ki, erkən evliliklərə dünyada olduğu kimi, ölkəmizdə də daha çox qızlar məruz qalırlar. Qızların erkən nikaha məruz qalmaları onların sosiallaşmasına, cəmiyyətə adaptasiyasına mane olur.

Diqqətə çatdırılıb ki, ölkəmizdə erkən nikahlara qarşı davamlı olaraq hüquqi islahatlar, maarifləndirici tədbirlər təşkil edilir. Görülən işlər nəticəsində erkən nikahların sayında xeyli azalmalar baş versə də, təəssüflər olsun ki, bu məsələ tam olaraq aradan qaldırılmayıb. Bunu hər il erkən yaşda qadınlardan doğulan uşaqların statistikası da təsdiq edir.

Məruzəçilər tərəfindən erkən nikahlara son verilməsinin yolları barədə müzakirələr aparılıb.

Tədbir Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Şərur Rayon İcra Hakimiyyəti və Naxçıvan Mediasiya Təşkilatının birgə təşkilatçılığı ilə baş tutub.

***Xəbərlər şöbəsi***

## Soyuq havalarda qripdən və digər infeksiyalardan qorunmaq üçün nələrə diqqət etməliyik

*Bildiyimiz kimi, 2022-2023-cü il qış mövsümü üçün ÜST tərəfindən influenza epidemiyası elan olunub. Havaların soyuması ilə kəskinləşən bir neçə qrip və infeksiya növləri əhali arasında sürətlə yayılmaqda davam edir.*



Hazırda demək olar ki, xəstəliyə tutulanlar arasında uşaqlar daha çoxdur. Bəs biz bu xəstəliklərə yoluxmamaq və özümüzü qorumaq üçün nələrə diqqət etməliyik? Mövzu ilə bağlı Naxçıvan Muxtar Respublika Xəstəxanasının Pulmonologiya bölməsinin müdiri, həkim-pulmonoloq Dilarə Baxşəliyeva bildirir ki, qış aylarında bir sıra virusların səbəb olduğu kəskin respirator virus infeksiyaları xəstəliklərinə rast gəlinir. Belə ki, son zamanlarda, sadəcə, koronavirus deyil, eyni zamanda artıq Avropada da geniş yayılmaqda olan qrip virusu da özünü göstərir.

Qripə yoluxan insanlarla COVID-19-a yoluxan insanların sayı eyni nisbətdə götürülür. Təbii ki, Azərbaycanda da qızdırma, öskürək, ümumi halsızlıqla bağlı şikayətlər qış aylarında artmağa başlayır və sürətlə yayılır. Son günlərdə də bu şikayətlərlə müraciət edən xəstələrin sayı artmaqdadır.

Dilarə Baxşəliyeva bildirir ki, istənilən halda, həm koronavirusa, həm də qripə qarşı profilaktik tədbirlər və müalicə eynidir. Sadəcə, sağlam qidalanaraq, mövsümə uyğun geyinərək, zamanında peyvənd olunaraq virusdan qoruna bilərik. Amma bütün bunlarla yanaşı, əllərimizi tez-tez möhkəm ovxalayaraq sabunla yumalı, öskürmə və asqırma zamanı dəsmaldan istifadə etməli və ya yoluxucu olmasın deyə bu zaman əl içinə deyil, dirsək arasına ağzımızı tutmalı, maskadan istifadə etməli, yaşadığımız və uzun müddət oturduğumuz məkanların tez-tez havasını dəyişməli, bir sözlə, sanitar-gigiyenik qaydalara əməl etməlidir.

Qripə yoluxan insanlar gərəksiz antibiotik və qrip əleyhinə dərmanlardan uzaq durmalı, özünütəcrid qaydalarına riayət olunmalı, bol maye qəbul edilməlidir. Şikayətlər uzandığı təqdirdə isə xəstə hökmən həkim müayinəsində olmalıdır. Risk qrupu olan şəxslər (xroniki xəstəliyi olanlar, hamilələr, 2 yaşdan kiçik uşaqlar, yaşlılar və digərləri) xəstəliyin daha erkən günlərində həkim müayinəsindən keçməli, uyğun tövsiyələr üzrə müalicə almalıdır.

Dünyanın ən şirin neməti cansağlığıdır, ona görə də sağlamlığımızı risk altında qoymamaq və onun qeydinə qalmaq üçün, birinci növbədə, həkim məsləhətinə qulaq asmalı, həkiməqədərki zaman içərisində isə ilkin yardım qaydalarına düzgün əməl etməliyik.

***Naxçıvan Muxtar Rspublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Rabitəçi-mühəndislər “Kibergigiyena layihəsi”nə qoşulublar



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən kadr hazırlığı istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən dövlət qurumlarının mövcud və ya yarana biləcək təhlükələrdən qorunması məqsədilə kibertəhlükəsizlik üzrə həyata keçirilən maarifləndirmə tədbirləri çərçivəsində Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin aidiyyəti əməkdaşları “Kibergigiyena layihəsi”nə qoşulublar. Layihənin əsas məqsədi informasiya təhlükəsizliyinə dair biliklərin artırılması və möhkəm kiberimmuna sahib olmaqdır.

“Kibergigiyena layihəsi”ndə nazirliyin 34 əməkdaşı iştirak edib. Layihənin icrası çərçivəsində mühəndislərin kiberhücum nümunələri əsasında hazırlanmış simulyasiya testlərinə yanaşmaları və hazırlıqları müəyyən olunub.

Qeyd edək ki, kibergigiyena internetdən təhlükəsiz istifadəni, şəxsi və korporativ məlumatların qorunmasını, riskli sahələrin müəyyən edilməsini, rəqəmsal təhlükəsizlik üzrə baza biliklərinin artırılmasını özündə ehtiva edir. Buraya həm mövcud risk sahələri haqqında məlumatlandırma, həm də bu risklərdən yayınma üsulları aiddir. Bu layihənin yekun hədəfi riskləri düzgün qiymətləndirərək onlardan qorunmaq üsullarını bilməklə internetdən təhlükəsiz istifadə zamanı yaranan təhlükələrdən effektiv müdafiə olunmaqdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Tələbə-gənclər təşkilatlarının fəaliyyətində yeni mərhələ

*Naxçıvanda fəaliyyət göstərən tələbə-gənclər təşkilatlarının işinin təkmilləşdirilməsi və onlar arasında şəbəkəli fəaliyyətin təmini məqsədilə görüş keçirilib.*

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri İlahə Haqverdiyeva çıxış edərək gənclər siyasətinin muxtar respublikada icrası ilə bağlı görülən işlərdən bəhs edib. Qeyd olunub ki, nazirlik gənclər təşkilatlarında fəallığın artırılmasına, bu müstəvidə qarşılıqlı əməkdaşlığa önəm verir və öz səlahiyyətləri çərçivəsində bu işə dəstək olacaqdır. Bildirilib ki, 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan olunduğundan dahi şəxsiyyətin həyat və fəaliyyətinin öyrənilməsi və təbliği istiqamətində layihələrin hazırlanması zəruridir.

Sonra təşkilat sədrlərinin fikir və təklifləri dinlənilib, müzakirələr aparılıb. Müzakirələrə əsasən müvafiq məsələlərin həlli ilə bağlı qeydlər aparılıb. Görüşün nəticəsi olaraq qərara alınıb ki, martın əvvəlinə



kimi tələbə-gənclər təşkilatları öz layihələrini hazırlayaraq nazirliyə təqdim etsin. Buna əsasən təşkilatların vahid Tədbirlər Planı tərtib və təsdiq ediləcək, ilin sonunadək icrası təmin olunacaqdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan atleti ölkə çempionatını maksimal nəticə ilə tamamlayıb



Bakı şəhərində atletika üzrə 39-cu Qış Azərbaycan çempionatı keçirilib. Respublika Olimpiya Mərkəzində reallaşan yarışda idmançılar 60, 200, 400, 800,1500, 3000 metr məsafələrə qaçış, 4x200 metr estafet qaçışı, üç təkanla tullanma, uzunluğa tullanma, hündürlüyə tullanma və nüvə itələmə növləri üzrə yarışıblar. Yarışda Naxçıvan Atletika Federasiyasının üç idmançısı iştirak edib. Onlardan ikisi mükafatçılar sırasına düşə bilib.

Ölkə və beynəlxalq miqyaslı yarış təcrübəsi olan Əmrah Nağıyev ona bəslənilən etimadı növbəti dəfə doğruldub. Təmsilçimiz qatıldığı 1500 və 3000 metr məsafələrə qaçış yarışlarında finişə birinci çataraq hər iki məsafə üzrə qızıl medala layiq görülüb.

Son ölkə birinciliklərinin altıqat qalibi, gələcəyinə böyük ümidlər bəslənilən Aysu Abbasova da medalsız qalmayıb. Aysu 1500 metr məsafədə ikinci, 3000 metr məsafədə isə üçüncü olub. İlk üç yerin sahibləri diplom və medalla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 16 fevral 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin satış qiyməti (manatla) | 1 ədəd nəqliyyat vasitəsinin satış qiyməti 10 faiz güzəştlə (manatla) | 1 ədəd nəqliyyat vasitəsinin satış qiyməti 25 faiz güzəştlə (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | NAZ LİFAN LF 6430 SUV | Minik | 2016 | 1 | 12000.0 | | 9000.0 | 1200.0 |
| 2. | OPEL ANTARA | Minik | 2012 | 1 | 15000.0 | 13500.0 | | 1500.0 |
| 3. | OPEL VEKTRA | Minik | 2008 | 1 | 10000.0 | 9000.0 | | 1000.0 |
| 4. | NAZ LİFAN LF7132-320 | Minik | 2010 | 1 | 6000.0 | 5400.0 | | 600.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 13 fevral 2023-cü il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 16 fevral 2023-cü il tarixdə saat $10^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

**Əlaqə telefonu: 545-01-38**

## Elan

Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsi dəftərxana ləvazimatlarının alınmasında və avtomaşınlara göstəriləcək təmir və sair işlərinin görülməsində kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxslərlə əməkdaşlığa dəvət edir. Xidmətə aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Maraq məktubu
- Malsatanın satdığı dəftərxana ləvazimatları

***Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsi***
***Əlaqə telefonu: (036) 545-35-21 (051) 207-14-92***

## Kəngərli rayonunda “Açıq qapı” günü keçiriləcək

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi fevralın 3-də Kəngərli rayonunda “Açıq qapı” günü keçirəcək.

Kəngərli Rayon Məhkəməsinin inzibati binasında baş tutacaq “Açıq qapı” gününün keçirilməsində məqsəd vətəndaşlara hüquqi yardım göstərməkdir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

### Bildiriş

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin “Naxçıvanterminalkompleks” Birliyi (VÖEN 0600012271) fəaliyyətini dayandırdığından ləğv edilir.

### İtmişdir

Mirzəyev Fuad İlham oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Seyidov Mirəli Mirbaba oğlunun adına Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi tərəfindən verilmiş 012706 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qarabağlar kəndində yaşamış Cəfərov Çölü Mehbalı oğlunun adına verilmiş JN-624[A] nömrəli, 10209018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərindəki “Günay-88” kiçik müəssisəsinə 1998-ci ildə verilmiş texniki pasport itdiyindən etibrsız sayılır.

***

Tağıyev Seymur Bayram oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Əliyev Araz Ağadadaş oğlunun adına Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi tərəfindən verilmiş 002320 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 74